# Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İnsan alveri qurbanları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət Qaydalarının təsdiq edilməsi haqqında" 2005-ci il 9 noyabr tarixli 203 nömrəli qərarına dəyişiklik edilməsi və bəzi qərarlarının qüvvədən düşmüş hesab edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 392 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 9 noyabr tarixli 203 nömrəli qərarı ilə təsdiq edilmiş "İnsan alveri qurbanları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət Qaydaları"nın 2.3-cü və 3.1.5-ci bəndlərində "Gənclər, İdman və Turizm" sözləri "Gənclər və İdman" sözləri ilə əvəz edilsin.
2. "Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi aparatı işçilərinin say həddinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 may tarixli 103 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.
3. "Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin strukturuna daxil olan müəssisə, idarə və təşkilatların Siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 sentyabr tarixli 151 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.
4. "Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin strukturuna daxil olan müəssisə, idarə və təşkilatların Siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 sentyabr tarixli 151 nömrəli qərarına əlavə edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 17 sentyabr tarixli 134 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.
5. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

**Bakı şəhəri, 26 may 2006-cı il**
**№ 134**